

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 72 (23.484)

15 may 2020-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiymәti 20 qəpik

## Ə.Q.Baxşıyevin Naxçıvan Muxtar Respublikasının Baş naziri vəzifəsindən azad edilməsi haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Fərmanı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Əlövsət Qəzənfər oğlu Baxşıyev Naxçıvan Muxtar Respublikasının Baş naziri vəzifəsindən azad edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 14 may 2020-ci il*

## Naxçıvanda pandemiya ilə mübarizə sahəsində görülən işlər müzakirə olunub

### *Səhiyyə müəssisələrinə yeni tibbi avadanlıqlar təqdim edilib*





Mayın 14-də Naxçıvan Muxtar Respublikasında pandemiya ilə mübarizə sahəsində görülən işlərlə bağlı tədbir keçirilmiş, bu məqsədlə alınmış yeni tibbi avadanlıqlar muxtar respublikanın səhiyyə müəssisələrinə təqdim olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov tədbirdə iştirak etmişdir.

Naxçıvan Muxtar Respublikası Baş nazirinin müavini-maliyyə naziri Səbuhi Məmmədov çıxış edərək demişdir ki, koronavirus pandemiyasına qarşı muxtar respublikada kompleks qabaqlayıcı tədbirlər görülmüşdür. Ali Məclis Sədrinin 2020-ci il 24 mart tarixli Fərmanı ilə "Naxçıvan Muxtar Respublikasında Koronavirusla Mübarizəyə Dəstək Fondu" yaradılmış və "Koronavirusla Mübarizəyə Dəstək Fondunun vəsaitinin formalaşdırılması, idarə olunması və ondan istifadə Qaydası" təsdiq edilmişdir. Fərmanda verilən tapşırıqlardan irəli gələrək fond üçün xüsusi xəzinə hesabı açılmış, vəsaitlərin fonda qəbulu və cəmləşdirilməsi istiqamətində lazımi tədbirlər həyata keçirilmişdir. Açılmış xəzinə hesabının rekvizitləri ictimaiyyətə təqdim edilmiş, rəsmi internet saytı fəaliyyətə başlamış, ianə edən fiziki və hüquqi şəxslər, həmçinin vəsaitlərin ümumi həcmi barədə məlumatlar yerləşdirilmişdir. Ötən dövrdə fonda 437 hüquqi və 569 fiziki şəxs tərəfindən, ümumilikdə, 5 milyon 47 min 189 manat vəsait köçürülmüşdür. Fondun vəsaitlərindən 3 milyon 326 min 861 manatı koronavirusla mübarizə tədbirlərinə xərclənmişdir. Ali Məclis Sədrinin Sərəncamı ilə koronavirusla mübarizə tədbirlərində iştirak edənlərə mükafat və müddətli əlavələr ödənilmişdir. Hazırda fondda 1 milyon 720 min 328 manat vəsait mövcuddur. Bu vəsait də pandemiya ilə mübarizə tədbirlərinə xərclənəcəkdir. Muxtar respublikada vergi ödəyicisi kimi qeydiyyatda olan 323 sahibkarlıq subyektinə işçilərinin əməkhaqlarının ödənilməsi, 6 min 282 fərdi sahibkara isə birdəfəlik maliyyə yardımının göstərilməsi üçün vəsaitlərin ayrılması nəzərdə tutulmuşdur.

Naxçıvan Muxtar Respublikası Səhiyyə nazirinin müavini Zeynəb Mustafayeva çıxış edərək demişdir ki, yaradılan şəraitin və görülən qabaqlayıcı tədbirlərin nəticəsidir ki, pandemiya elan olunan virusun muxtar respublikada yayılmasının qarşısı alınmışdır. Naxçıvan Muxtar Respublikasında, ümumilikdə, 7450 nəfər karantinə alınmışdır. Ötən dövrdə 7033 nəfərin karantin müddəti bitmişdir. Hazırda 417 nəfər karantində saxlanılır. Virusun laborator təyini üçün muxtar respublikada Polimer Zəncirvarı Reaksiya laboratoriyası yaradılmış, ötən dövrdə 2506 müayinə aparılmış, 106 nəfərdə virus aşkarlanmış, onlardan 2-si vəfat etmiş, 99-u müsbət reaksiyalı tam sağalma ilə evə yazılmışdır. Hazırda 5 xəstənin müalicəsi davam etdirilir. Səhiyyə müəssisələrində olan süni tənəffüs aparatları və oksigen konsentratorları işlək vəziyyətə gətirilmiş, əlavə 11 oksigen konsentratoru alınmışdır. Həmçinin Yoluxucu Xəstəliklər Mərkəzində əlavə kompressor və oksigen paneli quraşdırılmış, oksigen və təzyiqlə hava verilməsinin həcmi artırılmışdır. Kəskin böyrək çatışmazlığı olan xəstələrdə hemodializ seansı həyata keçirmək üçün bütün hazırlıq işləri görülmüş, 40 funksional çarpayı alınmışdır. Eyni zamanda muxtar respublikaya 58 min 200 litr formalin alınaraq gətirilmiş, 10 milyon kvadratmetr sahədə dezinfeksiya və dezinseksiya işləri aparılmışdır. Bütün bunlarla yanaşı, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin sərəncamlarına əsasən profilaktik tədbirlərdə iştirak edən dövlət tibb müəssisələrinin işçiləri və digər qurumların əməkdaşları aylıq vəzifə maaşının 1, 2 və 3 misli məbləğində mükafatlandırılmışlar. Zeynəb Mustafayeva həyata keçirilən tədbirlərə görə bütün səhiyyə işçiləri adından Ali Məclisin Sədrinə minnətdarlıq etmiş, yeni alınmış tibbi avadanlıqların səhiyyə müəssisələri üzrə bölgüsü barədə məlumat vermişdir.

Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Nicat Babayev demişdir ki, karantin dövründə muxtar respublikada yaşı 65-i keçmiş tənha yaşayan ahılların evlərinə həftədə iki dəfə sosial könüllülərin ziyarətləri təşkil olunmuş, ümumilikdə, 641 nəfərə sosial xidmət göstərilmişdir. Verilən tapşırığa uyğun olaraq cari ilin mart-aprel aylarında Naxçıvan şəhərində və muxtar respublikanın rayonlarında yaşayan tənha ahıl, ünvanlı dövlət sosial yardımı alan, çoxuşaqlı ailə və xüsusi qayğıya



ehtiyacı olan 1620 nəfərə ərzaq payları verilmişdir. Eyni zamanda muxtar respublikada təhsil alan və pandemiya səbəbindən ölkələrinə gedə bilməyən 164 əcnəbi tələbəyə ərzaq təqdim olunmuşdur. Karantin dövründə muxtar respublika üzrə 412 ailənin 1839 ailə üzvünə ünvanlı dövlət sosial yardımı verilmiş, 17 ailəyə ünvanlı dövlət sosial yardımının verilmə müddəti uzadılmışdır. 790 obyektdə monitorinq aparılmış, 383 obyektdə işçilərin özhesabına məzuniyyətə buraxılmasının qarşısı alınmışdır. Həmçinin karantin dövründə Protez-Ortopedik Bərpa Mərkəzinə gələ bilməyən şəxslərə səyyar xidmətlər göstərilmiş, 110 sağlamlıq imkanları məhdud şəxsə 133 texniki reabilitasiya vasitələri verilmiş, 120 nəfərə protez-ortopedik xidməti göstərilmişdir. Sosial qayğıya ehtiyacı olan 87 ailənin özünüməşğulluğu təmin edilmişdir. Eyni zamanda karantin dövründə məşğulluq orqanlarında işsiz kimi qeydiyyatda olan şəxslərə aylıq 190 manat məbləğində birdəfəlik ödəmənin verilməsi prosesi davam etdirilmiş, bu məqsədlə 1600 nəfərə 190 manat məbləğində birdəfəlik ödəmə təyin olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov çıxış edərək demişdir: Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin diqqət və qayğısı ilə ölkəmizdə koronavirusla mübarizə sahəsində qabaqlayıcı tədbirlər görülmüş, martın 24-dən xüsusi karantin rejiminə keçilmişdir. Ölkə Prezidentinin də dediyi kimi: ***"Bizim əsas vəzifəmiz xalqımızı, dövlətimizi qorumaqdır. Buna nail olmaq üçün istənilən addımların atılması mümkündür və biz bunu edirik".***

Ali Məclisin Sədri ölkəmizdə pandemiya ilə mübarizə və əhalinin sağlamlığının qorunması sahəsində həyata keçirilən tədbirlərə görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə minnətdarlığını bildirmişdir.

Qeyd olunmuşdur ki, Naxçıvan Muxtar Respublikasında da koronavirusla mübarizə tədbirləri ilk günlərdən diqqətdə saxlanılmış, martın 24-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində müşavirə keçirilmiş, Koronavirusla Mübarizəyə Dəstək Fondu yaradılmış, izolyasiya yeri kimi Yoluxucu Xəstəliklər Mərkəzi müəyyənləşdirilmiş, virusun aşkar edilməsi ilə bağlı müasir laboratoriya qurulmuş və lazımi tibbi ehtiyatlar yaradılmışdır. Səhiyyə müəssisələrinə ümumi dəyəri 2 milyon 970 min manat olan yeni tibbi avadanlıqların, dərman və ləvazimatların alınması da bu sahədə görülən işlərin davamıdır. Muxtar respublikada koronavirus infeksiyası ilə mübarizə tədbirlərində iştirak edənlərin sosial müdafiəsi də gücləndirilmiş, bununla bağlı müvafiq sərəncamlar imzalanmışdır.

Ali Məclisin Sədri demişdir: Karantin rejiminə uyğun olaraq muxtar respublikada bütün sahələrdə zəruri sosial davranış və sanitar-epidemioloji qaydalar tətbiq edilmiş, şəhər, qəsəbə və kəndləri əhatə etməklə hər bir yaşayış məntəqəsində, eləcə də ictimai yaşayış binalarında, idarə, müəssisə və təşkilatlarda dezinfeksiya işləri aparılmışdır. Təbii ki, pandemiya ilə mübarizədə səhiyyə müəssisələrinin fəaliyyəti xüsusi qeyd olunmalıdır. Mövcud infrastruktur, müasir tibbi avadanlıq və ləvazimatlarla təminat, ən əsası isə ixtisaslı həkim və tibb işçilərinin olması virusla mübarizədə əsas səbəbdir. Eyni

*Ardı 2-ci səhifədə*

zamanda qarşıya qoyulan vəzifələrin aid qurumlar tərəfindən vaxtında yerinə yetirilməsi və sakinlərin qaydalara düzgün əməl etməsi də pandemiyanın qarşısının alınmasında mühüm rol oynamışdır.

Ali Məclisin Sədri muxtar respublikada pandemiya ilə mübarizə tədbirlərini həyata keçirənlərə – səhiyyə işçilərinə, gigiyena və epidemiologiya mərkəzlərinin kollektivlərinə, daxili işlər orqanlarının və Fövqəladə Hallar Nazirliyinin əməkdaşlarına, baytarlıq təbabəti işçilərinə, eləcə də Koronavirusla Mübarizəyə Dəstək Fonduna vəsait köçürənlərə təşəkkürünü bildirərək demişdir: Mayın 2-dən etibarən Naxçıvan Muxtar Respublikasında pandemiya ilə əlaqədar tətbiq edilən məhdudiyyətlərin yumşaldılmasına başlanılmış, yeni qaydalar müəyyənləşdirilmişdir. Lakin bu, arxayınlaşma üçün əsas olmamalı, aid təşkilatlar və muxtar respublika əhalisi tətbiq olunan qaydalara ciddi əməl etməlidirlər. Səhiyyə Nazirliyi bundan sonra da izolyasiya yeri kimi Yoluxucu Xəstəliklər Mərkəzinin, eləcə də bütün tibb müəssisələrinin fəaliyyətini nəzarətdə saxlamalı, tibbi ehtiyatlar yaradılmalı, yeni alınmış avadanlıqlardan səmərəli istifadə olunmalı, test yoxlamaları davam etdirilməlidir. Nazirlik pandemiya ilə bağlı profilaktik tədbirləri, xüsusilə də əhalinin maarifləndirilməsini diqqətdə saxlamalı, risk qrupunda olan şəxslər qorunmalı, yeni yoluxma faktı təsdiq olunduqda həmin şəxslərlə təmasda olanlar dərhal karantinə alınmalıdır.

Ali Məclisin Sədri demişdir: Maliyyə Nazirliyi Koronavirusla Mübarizəyə Dəstək Fonduna yığılan vəsaitlərdən bundan sonra da səhiyyə müəssisələrinin sifarişi əsasında istifadəni təmin etməli, yeni tibbi avadanlıqların, dərman və digər zəruri ləvazimatların alınması diqqətdə saxlanılmalıdır. Daxili İşlər Nazirliyi yaşadığı yerdə karantində saxlanılan şəxslərə nəzarəti davam etdirməli, Fövqəladə Hallar və Səhiyyə nazirlikləri yaşayış məntəqələrində növbəti dezinfeksiya tədbirləri həyata keçirməlidirlər. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi aztəminatlı ailələrin yaşayış minimumunun və məşğulluğunun təmin edilməsini diqqətdə saxlamalı, hər ay boş iş yerləri çıxarılaraq təqdim olunmalıdır.

“Pandemiya ilə mübarizə yalnız dövlətin üzərinə düşən vəzifə deyil. Əhalinin də tətbiq olunan qaydalara əməl etməsi vacib məsələdir. Ona görə də görülən bütün işlərdə sakinlər həmrəylik nümayiş etdirməli, ictimai yerlərdə və parklarda, eyni zamanda ictimai iaşə obyektlərində zəruri sosial davranış və sanitar-epidemioloji qaydalara əməl olunmalıdır”, – deyən Ali Məclisin Sədri qarşıya qoyulan vəzifələrin icrasında hər kəsə uğurlar arzulamışdır.

Sonra yeni alınmış tibbi avadanlıqlara baxış olmuşdur.

“Nəqşicahanmed” Məhdud Məsuliyyətli Cəmiyyətin direktoru Cəlal Kərimov məlumat vermişdir ki, pandemiya ilə mübarizə məqsədilə 2 dəst Ekstrakorporal Membran Oksigenasiya cihazı, 20 stasionar süni tənəffüs aparatı, 4 portativ süni tənəffüs aparatı, 2 hemodializ cihazı, 4 mobil rentgen cihazı, 30 infuziya pompası, 20 yataqbaşı kardiomonitor, 10 elektrosorucu, 40 funksional və pediatrik çarpayı alınmışdır. Yeni avadanlıqlar Yoluxucu Xəstəliklər, Diaqnostika-Müalicə və Doğum mərkəzlərinə, Naxçıvan Muxtar Respublika Xəstəxanasına, Uşaq Xəstəxanasına, Şərur, Culfa və Ordubad rayon mərkəzi xəstəxanalarına, eləcə də Ordubad Uşaq Xəstəxanasına verilmişdir. Ağciyərin və ürəyin fəaliyyətinin bərpasında, tənəffüs funksiyası pisləşən hallarda ağciyərlərə oksigen verilməsində, böyrəklərin fəaliyyətinin bərpa olunmasında, maye, qan və qan əvəzedicilərin damar daxilinə yeridilməsində, tənəffüs yollarına toplanan selik və digər ifrazatların təmizlənməsində istifadə olunacaq yeni avadanlıqlar bu sahədə tətbiq olunan ən müasir texnologiyaya əsaslanır.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

## “Naxçıvansığorta” Açıq Səhmdar Cəmiyyəti yeni binada fəaliyyət göstərəcək

Bu münasibətlə keçirilən tədbirdə Naxçıvan Muxtar Respublikası Baş nazirinin müavini – maliyyə naziri Səbuhi Məmmədov çıxış edərək bildirib ki, muxtar respublikamızda digər sahələr kimi, sığorta işi də diqqət mərkəzində saxlanılır. Ötən dövrdə bu sahədə mühüm tədbirlər həyata keçirilib, bağlanılan sığorta müqavilələrinin həcmi dəfələrlə artıb. Sığorta-bazar münasibətlərinin təkmilləşdirilməsi və müasir dövrün tələblərinə uyğun olaraq 6 il bundan əvvəl yaradılmış “Naxçıvansığorta” Açıq Səhmdar Cəmiyyəti də uğurlu inkişaf yolu keçib. Cəmiyyət bu gündək sığorta bazarında etibarlı mövqe tutaraq müştərilərinə yüksəkkeyfiyyətli xidmətlər göstərməklə özünəinamı artırıb. Hazırda muxtar respublikamızın müxtəlif bölgələrində və paytaxt Bakı şəhərində nümayəndəlikləri fəaliyyət göstərən cəmiyyət tərəfindən 5 adda sığorta məhsulu təqdim olunur. Muxtar respublikamızın hərtərəfli inkişafı imkan verir ki, gələcəkdə təqdim olunacaq məhsulların sayı daha da artsın, sığorta bazarı daha da inkişaf etsin.





Səbuhi Məmmədov yaradılmış müasir iş şəraitinin “Naxçıvansığorta” Açıq Səhmdar Cəmiyyətinin fəaliyyətində yeni mərhələ olduğunu qeyd edib, bu münasibətlə kollektivi təbrik edərək onlara uğurlar arzulayıb.

“Naxçıvansığorta” Açıq Səhmdar Cəmiyyətinin idarə heyətinin sədri vəzifəsini icra edən Tural Ələkbərov çıxış edərək bildirib ki, sığorta müasir bazar münasibətlərinin mühüm elementlərindən biridir. Sığorta bazarının inkişafı qeyri-müəyyənliklərdən və risklərdən qorunmağa kömək etməklə ölkə iqtisadiyyatının dayanıqlı inkişafına töhfə verir.

Qeyd olunub ki, Naxçıvanda sığorta bazarının inkişaf etdirilməsi məqsədilə “Naxçıvansığorta” Açıq Səhmdar Cəmiyyəti ilk regional sığorta şirkəti olaraq 2014-cü il martın 14-də təsis edilib, həmin ilin aprel ayından fəaliyyətə başlayıb. Şirkətin baş ofislə yanaşı, Bakı şəhərində və muxtar respublikanın digər bölgələrində nümayəndəlikləri fəaliyyət göstərir. Cəmiyyətin Nizamnamə kapitalı 5 milyon 500 min manat təşkil edir. Hazırda cəmiyyət əmlakın yanğından və digər əlavə risklərdən sığortası, fərdi qəza sığortası, yüklərin sığortası, avtonəqliyyat vasitələri sahiblərinin mülki məsuliyyətinin könüllü sığortası və hüquqi şəxslərə təqdim edilən avtonəqliyyat vasitələrinin kasko sığortası olmaqla, 5 könüllü sığorta növü üzrə xidmət göstərir. Əlavə olaraq *naxçıvansığorta.az* internet saytı fəaliyyət göstərir ki, müştərilər həmin sayta daxil olmaqla cəmiyyət, o cümlədən sığorta məhsulları haqqında məlumatlar ala bilərlər.

Tural Ələkbərov yaradılmış şəraitə görə kollektiv adından dövlətimizə minnətdarlıq edib.

Qeyd edək ki, yeni binanın birinci mərtəbəsi və zirzəmisində, ümumilikdə, 253,17 kvadratmetr qeyri-yaşayış sahəsi “Naxçıvansığorta” Açıq Səhmdar Cəmiyyətinin mülkiyyətinə verilib. Yeni ofisdə müasir kompüter dəstləri, server və digər avadanlıqlar qoyulub, qanunvericiliyin tələblərinə uyğun olaraq cəmiyyət üçün proqram təminatı (İnsureAz) qurularaq istifadəyə verilib. Həmçinin müştərilərə sığorta xidmətlərindən rahat və məsafəli yararlana bilmək üçün “Naxçıvanbank” Açıq Səhmdar Cəmiyyətinə məxsus ödəmə terminallarından, onlayn ödəniş sistemindən və *naxçıvansığorta.az* saytından istifadə etməklə banka yaxınlaşmadan sığorta haqlarını ödəmə imkanı yaradılıb.

✍ **Səbuhi HƏSƏNOV**

*Muxtar respublikada rabitə sisteminin inkişafı diqqət mərkəzində saxlanılır, yeni texnologiyalar tətbiq olunmaqla xidmətin səviyyəsi ilbəil daha da yüksəldilir.* Görülən məqsədyönlü işlər poçt sahəsini də əhatə edir. Belə ki, muxtar respublikanın poçt şəbəkəsinin genişləndirilməsi istiqamətində məqsədyönlü addımlar atılır, kəndlərdə yeni poçt bölmələri yaradılır və lazımi avadanlıqlarla təmin edilir. Həmçinin yüksəkkeyfiyyətli televiziya və radio yayımlarının təşkilinə də xüsusi diqqət yetirilir, IP televiziya kanallarının keyfiyyətini yaxşılaşdırmaq üçün müasir dövrün tələblərinə uyğun ötürücü qurğular quraşdırılaraq istismara verilir. Eləcə də genişzolaqlı və sürətli internet şəbəkəsinin yaradılması muxtar respublikada internet istifadəçilərinin sayının günbəgün daha da çoxalmasına səbəb olur. Ümumilikdə, istər şəhər, istərsə də kənd yaşayış məntəqələrinin rabitə və informasiya infrastrukturunun müasirləşdirilməsi istiqamətində reallaşdırılan tədbirlər insanların bu xidmətlərdən səmərəli istifadəsinə geniş imkanlar açır.

## Rabitə xidmətinin keyfiyyəti yüksəldilir

Rabitə xidmətinin müasir dövrün tələbləri səviyyəsində qurulması üçün görülən tədbirlər cari ildə də diqqətdə saxlanılıb. Belə ki, 2020-ci ilin ilk rübündə muxtar respublikada informasiya və rabitə sahəsinin inkişafı üçün 1 poçt bölməsi yeni bina ilə təmin olunub, 1 avtomat telefon stansiyası quraşdırılıb. Həmin dövrdə Ordubad rayonunda Dəstə Radio-Televiziya Ötürücü Stansiyası üçün bina istifadəyə verilib. Bundan başqa, Culfa rayonunda rabitə evinin yenidən qurulması davam etdirilib, Sədərək rayonunda Radio-Televiziya Ötürücü Stansiyası üçün binanın, Kəngərli rayonunda rabitə evinin tikintisinə başlanılıb.

Həyata keçirilən kompleks tədbirlər nəticəsində cari ilin yanvar-mart aylarında muxtar respublikada informasiya və rabitə xidmətlərinin dəyəri 2019-cu ilin müvafiq dövründəki göstəricini 2,1 faiz üstələyərək 13 milyon 380 min 100 manat olub. Ümumi xidmətlərin 80,2 faizi mobil rabitənin payına düşüb, mobil rabitə xidmətlərinin dəyəri 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə 2,8 faiz artıb.

**Xəbərlər şöbəsi**

## Aqrar sahədə işlər davam etdirilib



Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyi 2020-ci ilin aprel ayında öz fəaliyyətini nazirliyin illik iş planının və dövlət proqramlarının icrası istiqamətində həyata keçirib. Nazirlik əməkdaşları tərəfindən muxtar respublikada payızlıq taxıl əkinlərinə 2-ci yemləmə gübrələrinin verilməsi, taxıl sahələrində alaq otlarına, sarı çiçəyə, meyvə və üzüm bağlarında zərərverici və xəstəliklərə qarşı qabaqlayıcı mübarizə tədbirlərinin həyata keçirilməsinin məhsuldarlığa təsiri, eyni zamanda kartof əkinlərinin əkin atlaslarına uyğun aqrotexniki qaydada aparılmasının əhəmiyyəti haqqında torpaq mülkiyyətçilərinə məsləhətlər verilib.

Ümumilikdə, muxtar respublikada yazın əvvəlindən 235 hektar yonca sahəsində fitanomus zərərvericisinə, 4 min 675 hektar taxıl və cavan meyvə bağlarında gəmiricilərə, 3 min 761 hektar taxıl sahəsində alaq otlarına, həmçinin 8 hektar bəzək bitkiləri sahəsində zərərverici və xəstəliklərə qarşı kimyəvi mübarizə tədbirləri aparılıb. Ay ərzində Culfa rayonunda 2, Babək rayonunda 6 üzüm və meyvə bağlarında kompleks tədbirlərin aparılması ilə bağlı köməklik göstərilib.

“Araz” Elm-İstehsalat Birliyinin Aqrokimya, torpaqşünaslıq və torpaqların kütləvi analizləri şöbəsinin əməkdaşları tərəfindən torpaq mülkiyyətçiləri və ailə təsərrüfatı başçılarının gətirdikləri torpaq nümunələri analiz olunub, tərkibindəki qida maddələrinin miqdarı barədə aidiyyəti üzrə məlumat təqdim edilib.

Toxumçuluq və bitkilərin mühafizəsi idarəsinə 85 ayrı-ayrı ailə təsərrüfatı sahibləri və fermerlər tərəfindən istixana, meyvə, üzüm bağı əkinlərində xəstəlik və zərərvericilərin aşkarlanması barədə olunan müraciətlər əsasında, həmin sahələrə baxış keçirilib, mübarizə tədbirləri haqqında məsləhət və tövsiyələr verilib. Toxumçuluq təsərrüfatları və fermerlər tərəfindən laboratoriyaya gətirilən toxumlar analizdən keçirilərək nəticəsi haqqında onlara analiz aktı verilib.

Qoyunçuluq təsərrüfatlarında yeni doğulan balalara zoobaytar qaydalarına uyğun qulluq edilməsinin əhəmiyyəti, mal-qaranın cins tərkibinin yaxşılaşdırılması üçün süni mayalandırmanın davam etdirilməsi və baytarlıq tədbirlərinin aparılması ilə bağlı sahibkarlarla maarifləndirici söhbətlər aparılıb.

***Naxçıvan Muxtar Respublikası***
***Kənd Təsərrüfatı Nazirliyinin mətbuat xidməti***

## Ötən ay 141 mənzil və müxtəlif təyinatlı obyekt qazlaşdırılıb

*Muxtar respublikanın enerji təhlükəsizliyinin təmin olunmasında yaşayış məntəqələrinin və istehsalat sahələrinin təbii qazla təminatını həyata keçirmək üçün Naxçıvan Muxtar Respublikası Qaz İstismar Xidmətində təsdiq olunmuş iş planına əsasən ardıcıl tədbirlər görülür. Muxtar respublikanın şəhər və rayonlarından aprel ayı ərzində daxil olan müraciətlərə əsasən cəmi 141 mənzil (ev) və müxtəlif təyinatlı obyektlər qazlaşdırılmışdır ki, bunun 137-si əhali, 4-ü isə qeyri-əhali abonentdir.*

Naxçıvan şəhərində mexaniki qaz sayğaclarının smartkarttipli qaz sayğacları ilə əvəz olunması istiqaməti üzrə işlər davam etdirilmiş, 1 may 2020-ci il tarixə cəmi 20 min 167, o cümlədən cari ilin aprel ayında 73 qaz sayğacı quraşdırılmışdır.



Ötən ay Qaz İstismar Xidmətinə tabe şəhər, rayon qaz istismar idarələrinin qəza-dispetçer sahələrinin 24 saat aktiv olan *104* nömrəli qaynar xəttinə təbii qaz istehlakçılarından qaz sızması, qaz tənzimləyicilərin nizamlanması, elektron sayğacların kilidə düşməsi və qəzabərpa işlərinə görə 906 çağırış daxil olmuşdur. Hesabat dövründə muxtar respublika qaz şəbəkəsində 625 qaz sızması aşkarlanmış, texniki istismar və texniki təhlükəsizlik qaydalarının tələblərinə müvafiq olaraq aradan qaldırılmışdır.

Naxçıvan Muxtar Respublikasında ötən ay yeni qaz boru xətlərinin quraşdırılması, yenidənqurma, abadlıq işlərinin də görülməsi zamanı qaz boru xətlərinin yerinin dəyişdirilməsi, yaşayış binalarında təmir-tikinti, korroziyaya uğramış yeraltı yol, qapı keçidlərinin yerüstü keçidlərlə əvəz edilməsi işlərinin görülməsi ilə əlaqədar olaraq polietilen və dəmir borulardan istifadə olunmuşdur.

Muxtar respublikada qaz istismar idarələrinin işçiləri tərəfindən qaz cihazlarından təhlükəsiz istifadə qaydaları haqqında abonentlər arasında maarifləndirmə və izahat işi aparılmışdır.

***Naxçıvan Muxtar Respublikası***
***Qaz İstismar Xidməti***

*15 may Beynəlxalq Ailə Günüdür*

# Ailə dəyərlərimiz yaşadılır

*Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası 1993-cü ildə hər il mayın 15-nin "Beynəlxalq Ailə Günü" kimi qeyd olunması barədə qərar qəbul etmişdir. Həmin tarixdən etibarən 15 may dünyada Beynəlxalq Ailə Günü kimi qeyd olunur.*

Ailə tarixən xalqımızın yüksək mənəvi dəyərlərinin qoruyucusu, genofondumuzun daşıyıcısı kimi mühüm rol oynamışdır. Ailə nikah, qohumluq, ümumi maraq və qarşılıqlı mənəvi məsuliyyətin mövcud olduğu kiçik qrupdur. Başqa sözlə, ailə vahid qayə uğrunda birlikdə var olub çalışan üzvlərin, qohum-əqrəbaların cəmidir, onların yaşayış tərzində ən əhəmiyyətli yer tutan təməldir. Sağlam cəmiyyətin, güclü dövlətin formalaşması və inkişafında mühüm vasitə olan ailə insanların bütün yaş dövrlərində ehtiyac duyduğu ən ali dəyərdir.

***"Ailə xüsusi, mürəkkəb insan münasibətləri aləmidir. Burada böyük bir nəzakət, həssaslıq, şəxsiyyətin ləyaqətinə, ailənin mənafeyinə, hörmət və ehtiram lazımdır"***, – deyən ümummilli lider Heydər Əliyev ölkəmizə rəhbərliyi dövrlərində ailə siyasətinin formalaşdırılması məsələlərinə böyük diqqət yetirmiş, ailələrin sosial problemlərinin həlli istiqamətində ardıcıl və məqsədyönlü tədbirlər görülmüş, ailə münasibətlərini tənzimləyən zəngin hüquqi baza yaradılmışdır. Azərbaycan Respublikasının Konstitusiyasında ailə cəmiyyətin özəyi kimi təsbit olunmuş və dövlətin xüsusi himayəsində olduğu qeyd edilmişdir. Bununla dövlət ailənin müdafiəsinə, onun sosial quruluşunun və nüfuzunun qorunmasına təminat vermişdir. 1999-cu ildə qəbul edilən Azərbaycan Respublikasının Ailə Məcəlləsi ailə münasibətlərinin tənzimlənməsini özündə əks etdirən əsas hüquqi sənəddir.

Bu gün əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan dövlət ailə siyasəti ölkə başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilir. Naxçıvan Muxtar Respublikasında da dövlət ailə siyasəti uğurla həyata keçirilir. Əhalinin rifah halının yaxşılaşdırılması, ailələrin məşğulluqlarının təmin olunması, sağlamlıqlarının qorunması istiqamətində mühüm tədbirlər görülür. Həmçinin muxtar respublikada ailələrin sosial rifah halının gücləndirilməsinin nəticəsidir ki, ildən-ilə muxtar respublikada ailələrin sayı artır. Hazırda Naxçıvan Muxtar Respublikasında 97 min 793 ailə yaşayır. Muxtar respublikada ailələrin sağlamlıqlarının qorunması qarşıda duran əsas vəzifələrdəndir. Qadınların sağlamlıqlarının qorunması, dünyaya gələn yeni nəslin sağlam doğulması və böyüməsi, körpə və ana ölümünün minimuma endirilməsinin daim nəzarətdə saxlanılmasının nəticəsidir ki, muxtar respublikada bu sahədə müsbət nəticələr əldə olunmuşdur. Həmçinin icbari tibbi sığortanın tətbiqi ailələrimizə, uşaqlarımıza münasib sahədə göstərilən diqqətin bariz nümunəsidir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 9 oktyabr tarixli Sərəncamı ilə təsdiq olunmuş "Naxçıvan Muxtar Respublikasında uşaqların icbari dispanserizasiyadan keçirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı"nın qəbul olunması da bu sahədə atılan mühüm addımlardan biridir.

Muxtar respublikamızda həyata keçirilən genişmiqyaslı quruculuq tədbirləri çərçivəsində ailələrin, o cümlədən gənc və aztəminatlı ailələrin mənzil şəraitlərinin yaxşılaşdırılması istiqamətində kompleks tədbirlər həyata keçirilir, yeni yaşayış binaları tikilərək, yaxud yenidən qurularaq istifadəyə verilir, sosial məsələlərin həlli ilə bağlı əhəmiyyətli addımlar atılır. Həyata keçirilən sosial siyasətin mühüm bir istiqaməti də mənzillərin ipoteka yolu ilə gənc ailələrə verilməsidir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 7 noyabr tarixli Fərmanı ilə "Naxçıvan İpoteka Fondu" Açıq Səhmdar Cəmiyyətinin yaradılması əhalinin, xüsusilə də gənc və aztəminatlı ailələrin güzəştli şərtlərlə mənzil sahibi olmasına şərait yaratmışdır. Bu sahədə həyata keçirilən tədbirlərin davamı olaraq Naxçıvan şəhərinin Əziz Əliyev prospektində 2 yaşayış kompleksi istifadəyə verilmiş, Kazım Talıblı küçəsində isə yeni yaşayış kompleksi inşa olunmaqdadır. Hazırda muxtar respublikanın şəhər və rayonlarında yeni yaşayış binaları da inşa edilir ki, bu binalarda da gənc ailələr ipoteka kreditləri ilə mənzil sahibi ola biləcəklər. 1995-ci ildən bu günədək sosial qayğıya ehtiyacı olan ailələr üçün 536 ev tikilmiş və ya yenidən qurulmuşdur.

Ailələrin rifahının təmin olunmasında məşğulluğun da rolu danılmazdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın icrasına uyğun olaraq ailələrin, o cümlədən aztəminatlı ailələrin özünüməşğulluqlarının təmin edilməsi üçün müxtəlif sosial layihələr həyata keçirilir. Dövlət proqramına uyğun olaraq ailələrə müxtəlif növdə aktivlər verilir ki, bu da muxtar respublikada ailə təsərrüfatlarının yaranmasına geniş imkanlar açır. Uzun müddət ünvanlı dövlət sosial yardımı alan, fərdi təsərrüfatlarını qurmaq istəyən ailələrə köməklik göstərilməsi məqsədilə iribuynuzlu və xırdabuynuzlu mal-qara, həmçinin ailə üzvlərinin peşələrinə uyğun avadanlıqlar verilir.

Ötən dövr ərzində ailə təsərrüfatlarının yaradılmasına dövlət tərəfindən göstərilən qayğının nəticəsidir ki, 1 yanvar 2020-ci il statistikasına əsasən muxtar respublikada 940 ailə təsərrüfatı fəaliyyət göstərir. Həmçinin 391 ailə özünüməşğulluq proqramına cəlb olunmuşdur. Eyni zamanda muxtar respublikada gənc qızların, o cümlədən sağlamlıq imkanları məhdud qadınların xüsusi peşələrə yiyələnməsi, istedad və bacarıqlarının inkişaf etdirilməsi üçün xalçaçılıq, keçəçilik, dərzilik, ağac üzərində oyma kimi peşə kurslarının təşkil olunması onların özünüməşğulluğuna şərait yaradır, sosial vəziyyətlərinin yaxşılaşmasına dəstək verir.

BMT-nin İnkişaf Proqramının "Dayanıqlı inkişaf üçün qadınların səlahiyyətləndirilməsi" layihəsi reallaşdırılmışdır. Həmin layihə çərçivəsində öz biznes planı ilə fərqlənən 63 qadına, ümumilikdə, 43 min 700 manat məbləğində sərmayə kapitalı verilmişdir.

Komitə tərəfindən mütəmadi olaraq muxtar respublikanın rayon və kənd mərkəzlərində müvafiq mövzularda maarifləndirici tədbirlər həyata keçirilir, tədbir iştirakçılarına mövzu ilə əlaqədar maarifləndirici broşürlər paylanılır, eyni zamanda kütləvi informasiya vasitələrində və sosial şəbəkələrdə ailə dəyərlərinin təbliği ilə bağlı çıxışlar edilir.

Aztəminatlı ailələrə xüsusi diqqət və qayğı ilə yanaşılması muxtar respublikada ailə siyasətinin əsasını təşkil edir. Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və aidiyyəti dövlət orqanlarının nümayəndələri muxtar respublikada yaşayan aztəminatlı ailələrə mütəmadi baş çəkir, onların problemlərinin həlli istiqamətində müvafiq işlər görülür, ailə üzvlərinə tibbi xidmət göstərilir, onların zəruri ehtiyacları ödənilir. Həmçinin aztəminatlı ailələrin rifah halının yaxşılaşdırılması, həyat səviyyəsinin yüksəldilməsi istiqamətində tədbirlər görülür, onlara sosial müavinətlər ödənilir. Görülən işlərin nəticəsində ötən illə müqayisədə aztəminatlı ailələrin sayında 44 faizədək azalma müşahidə olunmuşdur. Qeyd olunanlarla yanaşı, muxtar respublikada ailə dəyərlərimizin gənclərə təbliği məqsədilə yazı, dekorativ-tətbiqi sənət, yaradıcılıq və rəsm müsabiqələri keçirilir.

Muxtar respublikamızda qeyd olunan vəzifələrin icrası, milli dəyərlərimizin əsas hissəsi olan ailə dəyərlərinin qorunub yaşadılması istiqamətində bundan sonra da ardıcıl tədbirlər görüləcəkdir.

## Onlayn elmi konfrans olub



*AMEA Naxçıvan Bölməsində Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi Əbdürrəhim bəy Haqverdiyevin anadan olmasının 150 illiyinə həsr olunan onlayn elmi konfrans keçirilib.*

Tədbiri giriş sözü ilə bölmənin sədri, akademik İsmayıl Hacıyev açaraq ölkə Prezidenti cənab İlham Əliyevin "Əbdürrəhim bəy Haqverdiyevin 150 illik yubileyinin qeyd edilməsi haqqında" 2020-ci il 31 yanvar tarixli Sərəncamının əhəmiyyətindən bəhs edib. O, görkəmli yazıçının həyat və fəaliyyətinə nəzər salaraq bildirib ki, Əbdürrəhim bəy Haqverdiyev həm bədii yaradıcılığı, elmi-nəzəri məqalələri, həm də tərcümə əsərləri ilə ədəbiyyat xəzinəmizin zənginləşməsində böyük xidmətlər göstərib. Qeyd olunub ki, bədii nəsr sahəsində digər tanınmış ədiblərimizlə yanaşı, realist nəsrin ənənələrini davam etdirən görkəmli yazıçı orijinal, özünəməxsus üslubu ilə bir sıra əsərlər qələmə alıb. O, yaradıcılığı dövründə pyes, hekayə, məqalə və xatirə yazıb, rus və dünya ədəbiyyatından tərcümələr edib, eyni zamanda səhnəmiz üçün dram əsərləri qələmə alıb.

Akademik bildirib ki, Əbdürrəhim bəy Haqverdiyevin adının UNESKO-nun 2020-2021-ci illər üçün görkəmli şəxslərin və əlamətdar hadisələrin yubileyləri siyahısına daxil edilməsi onun yaradıcılığına verilən dəyərdir.

Onlayn konfransda yazıçının ədəbi-bədii yaradıcılığı ilə yanaşı, onun mədəni-ictimai fəaliyyətindən, milli ideologiyanın oyanışında misilsiz xidmətlərindən də söz açılıb. Qeyd olunub ki, ədibin zəngin yaradıcılıq fəaliyyəti bundan sonra da öyrəniləcək.

Bölmənin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev "Əbdürrəhim bəy Haqverdiyevin həyatı və yaradıcılıq yolu", institutun elmi işlər üzrə direktor müavini, professor Hüseyn Həşimli "Əbdürrəhim bəy Haqverdiyevin dramaturgiyası", Ədəbiyyatşünaslıq şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent Ramiz Qasımov "Bədii nəsrimizin tarixində Əbdürrəhim bəy Haqverdiyevin mövqeyi", Musiqi və teatr şöbəsinin böyük elmi işçisi, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Ələkbər Qasımov "Əbdürrəhim bəy Haqverdiyevin pyesləri Naxçıvan səhnəsində" və Dilçilik şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent Nuray Əliyeva "Əbdürrəhim bəy Haqverdiyev əsərlərinin bədii dil və üslub xüsusiyyətləri" mövzularında məruzə ilə çıxış ediblər.

***AMEA Naxçıvan Bölməsinin***
***Beynəlxalq əlaqələr və informasiya şöbəsi***

## Xüsusi qayğıya ehtiyacı olan ailələrlə görüş



15 may – Beynəlxalq Ailə Günü münasibətilə Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən silsilə tədbirlər həyata keçirilib. Belə ki, komitənin və Naxçıvan şəhər, müvafiq rayon icra hakimiyyətlərinin birgə təşkilatçılığı ilə Naxçıvan şəhərində və Şərur, Ordubad, Şahbuz, Culfa, Babək, Kəngərli, Sədərək rayonlarında yaşayan, ümumilikdə, 30 aztəminatlı, çoxuşaqlı, sağlamlıq imkanları məhdud ailələrlə görüş keçirilib.

Görüş zamanı adıçəkilən təşkilatların əməkdaşları bildiriblər ki, dövlətimiz tərəfindən bütün ailələrə, o cümlədən aztəminatlı ailələrə daim diqqət və qayğı göstərilir. Vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi, onların məşğulluğunun təmin olunması muxtar respublikada həyata keçirilən sosial siyasətin aparıcı istiqamətlərindən biridir. Eləcə də əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması, aztəminatlı, çoxuşaqlı, xüsusi qayğıya ehtiyacı olan ailələrin sosial təminatlarının gücləndirilməsi və yoxsulluğun azaldılması istiqamətində ardıcıl və məqsədyönlü layihələr həyata keçirilir, onlar özünüməşğulluq proqramına cəlb edilirlər. Həmçinin həyat və məişət şəraitlərinin yüksəldilməsi üçün aztəminatlı ailələrin nümayəndələri ilə vaxtaşırı görüşlər təşkil edilir, onlara dəstək göstərilir.

Bildirilib ki, 15 may – Beynəlxalq Ailə Günü ilə əlaqədar ailələrlə keçirilən görüşlərdə onlara ərzaq payı, geyim dəsti və tibbi ləvazimat verilib.

Ailələrin üzvləri dövlətimiz tərəfindən onlara göstərilən dəstəyi yüksək qiymətləndirərək bu diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər.

Qeyd edək ki, ailələrlə görüşlər mövcud vəziyyətlə əlaqədar sosial izolyasiya qaydalarına uyğun həyata keçirilib.

***Naxçıvan Muxtar Respublikası***
***Ailə, Qadın və Uşaq Problemləri üzrə***
***Dövlət Komitəsinin mətbuat xidməti***

## Onlayn laborator-təlim



Dünən Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi və Naxçıvan Dövlət Universitetinin birgə təşkilatçılığı ilə universitetin Təbiətşünaslıq və kənd təsərrüfatı fakültəsinin Kimya laboratoriyasında muxtar respublika ümumtəhsil məktəblərinin kimya müəllimləri və Kimya ixtisası üzrə təhsil alan tələbələr üçün laborator təlim keçirilib.

Nazirliyin əməkdaşları, universitetin professor-müəllim heyəti və muxtar respublika ümumtəhsil məktəblərinin kimya müəllimləri olmaqla, ümumilikdə, 70-dən çox müəllimin onlayn qaydada iştirak etdiyi təlimin məqsədi tədrisin səviyyəsinin yüksəldilməsi olub.

Təlimdə universitetin Kimya kafedrasının müəllimləri Sevinc Kərimova, İsgəndər Mehdiyev və Pərvin Quliyeva müxtəlif mövzularda təcrübə keçiblər. Müəllimlərə aydın, səlis, izahlı eksperimentlər nümayiş etdirilib və olduqca maraqla dinlənilib. Təlim sual-cavab şəklində başa çatıb.

***Naxçıvan Muxtar Respublikası***
***Təhsil Nazirliyinin mətbuat xidməti***

## Tələbə Elmi Cəmiyyətinin onlayn konfransı keçirilib

*Dünən Naxçıvan Müəllimlər İnstitutunun Pedaqoji fakültəsində Tələbə Elmi Cəmiyyətinin (TEC) 2019-2020-ci tədris ili üçün yekun onlayn konfransı keçirilib.*

Fakültənin professor-müəllim heyəti və TEC işlərini yerinə yetirən tələbələrin qoşulduğu konfransı giriş sözü ilə fakültə dekanı Arif Ağalarov açıb. O, TEC işləri ilə bağlı Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən təsdiq olunmuş mövcud əsasnamənin tələblərinə uyğun olaraq fakültədə aparılan işlər və qarşıda duran vəzifələr haqqında konfrans iştirakçılarına məlumat verib.



Çıxışda ali və orta ixtisas təhsili müəssisələrində könüllülük prinsipi əsasında fəaliyyət göstərən bu qurumun tələbələrin ictimai həyatdakı fəallığı, ali təhsilli kadrların hazırlanması işində keyfiyyətin yüksəldilməsi, tələbələrin elmi fəaliyyətə marağının artırılması, perspektivli və istedadlı gənclərin üzə çıxarılması, həmçinin sabahın alimlərinin yetişməsindəki rolu, gələcəkdə TEC işlərinin yeni innovasiyalara yönəldilməsinin vacibliyi xüsusi qeyd edilib.

Plenar iclasda üç tələbənin məruzəsi dinlənilib, sonra konfrans altı bölmə üzrə öz işini davam etdirib. Bölmələr üzrə, ümumilikdə, 53 tələbənin məruzəsi dinlənilib, elmi və tədqiqatçılıq baxımından fərqlənən məruzələr institut turuna göndərilib.

***Naxçıvan Müəllimlər İnstitutunun***
***mətbuat və ictimaiyyətlə əlaqələr xidməti***

*Həmkarımızın portreti*

# "Jurnalist təkcə öz ömrünü yaşamır..."

***…Ömür axıb gedən zamanın bizə düşən kiçik bir hissəsi, çətin, əzablı yollardan, xoş və gərgin günlərin təəssüratlarından, xatirələr və arzularla qovuşan anlardan bütövləşmiş vaxt ölçüsüdür. İndi ömrünün 70-ci ilinin zirvəsindən baxanda çox uzaqlarda, sərhədləri o qədər də aydın olmayan uşaqlıq illərinin, zəhmətlə dolu hadisələrin və çapıqlaşmış yaraların izləri ilə yanaşı, qırmızı, işıqsaçan cizgilər də görünür. Bu cizgilər Şərur Rayon İcra Hakimiyyətinin orqanı olan "Şərurun səsi" qəzetinin redaktoru, Azərbaycan Respublikasının Əməkdar jurnalisti, Naxçıvan Muxtar Respublikasının Əməkdar mədəniyyət işçisi, Azərbaycan Jurnalistlər Birliyinin və Naxçıvan Mətbuat Şurası idarə heyətinin üzvü Elman Məmmədovun keçdiyi ömür və tale yolundan xəbər verir.***



Elman Telman oğlu Məmmədov 70 il bundan əvvəl – 1950-ci il may ayının 15-də Şərur rayonunun Düdəngə kəndində doğulub. 1968-ci ildə rayon qəzetinin mətbəəsində mürəttib köməkçisi kimi çalışıb, eyni zamanda redaksiyanın tapşırığı ilə ara-sıra xəbər axtarışına çıxıb. 1969-1974-cü illərdə Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsində təhsil alıb. Hüseyn Əbdülhüseynov, Cəfər Məmmədov, Cəfər Əliyev, Mikayıl Əliyev və digər peşəkarlarla çiyin-çiyinə işləyib.

Şəxsən tanıdığım, əməkdaşlıq etdiyim bu ziyalıların qələmindən çıxan yazılar hesabına ozamankı "İşıqlı yol" qəzeti respublika miqyasında ən yaxşı rayon qəzetlərindən sayılırdı. Bunun bir səbəbi də qəzetdə tənqidi yazılara, xüsusən felyetonlara geniş yer verilməsi ilə bağlı idi. Mübariz janrda yazanların sırasında Elman müəllimin xüsusi yeri vardı. Bəlkə də, mətbuata çox bağlılığımın nəticəsi idi ki, sonradan nə qədər şərurlu gənc onu ideal seçərək jurnalist olmaq arzusuna düşmüşdü. Onlardan biri də mən idim. Jurnalistikada təhsil aldığım illərdə qəzetin "Mirzəcəlil sayağı" rubrikası altında onlarla yazım dərc olundu. Felyetonları birgə yazsaq da, "qəhrəmanlarımız"ın təhdidlərinə, hədə-qorxularına Elman Məmmədov özü cəsarətlə cavab verirdi.

Minimum söz, maksimum məna... Onun tələbi belə idi. Bir dəfə rayon Mərkəzi Xəstəxanasının baş həkiminin rüşvətxorluğundan bəhs edən "Xəstə çox şey dilər, lakin ona qismət olmaz" adlı felyetona rüşvətxor obrazı yaratmağa cəhd elədiyim bir səhifəlik yazının üstündən xətt çəkib belə bir cümlə ilə əvəzlədi: "Baş həkim yumruğunu stola elə çırpdı ki, küncdəki ayağıbağlı xoruz dik atıldı". Vəssalam! Təşbehsiz, məcazsız, istiarəsiz, təkrirsiz, mübaliğəsiz, epitetsiz, litotasız, metonimiyasız və metaforasız da obraz göz önündə canlanır.

Onunla birlikdə ərsəyə gətirdiyimiz, müxtəlif illərdə muxtar respublika mətbuatında, hətta "Kirpi" jurnalında dərc olunan, nöqsanlarla mübarizə üsulu kimi seçilən felyetonlardan bəzilərini indi də əziz xatirə kimi saxlayıram. Onlardan "Döyənək çox pis şeydir", "Döşə gəlsin", "Gecə konserti", "Piyada səfər", "Özü əngəl içində", "Qoğal", "Mən niyə dərsdən qaçdım", "Şeytan", "Cadu-piti", "Tilsim" kimi felyeton və replikalar indi də öz bədii məziyyətlərini qorumaqdadır.

Onu da xatırladım ki, hələ 60-cı illərdən qəzetin nəzdində yaranmış "Şərur qönçələri" ədəbi dərnəyi həmin illərdə Elman Məmmədovun təşkilatçılığı ilə şərurlu gənc ədəbi qüvvələrin məbədgahına çevrilmişdi. Dərnəyin yetirmələri sonralar ölkəmizin ictimai-siyasi həyatında, ədəbi-bədii mühitində öz dəstxətləri ilə tanınmışlar. İsa Həbibbəyli, Muxtar İmanov, Asim Yadigar, Əhməd Sədərəkli, Vaqif Məmmədov, Budaq Təhməz, İnqilab Orxan, sonralar dərnəyin rəhbəri olmuş İbrahim Yusifoğlu…

İllər sonra həmin ziyalılarla söhbətimdə dəfələrlə Belinskinin bu məşhur kəlamı belə improvizə olunub: "Bütün Rusiya Qoqolun "Şinel"indən çıxdığı kimi şərurlu ədəbi qüvvələr də "Şərur qönçələri"nin, konkret olaraq, Elman müəllimin "şinelindən çıxıb". İndi onların əksəriyyəti Şərurdan uzaqlarda yaşasalar da, ata yurduna gələndə onunla da əzizləri kimi görüşür, onu ziyarət edir, həmin günləri sevə-sevə xatırlayırlar.

Təəssüf ki, nümunəvi yerli mətbuat orqanı kimi özünəməxsus inkişaf və yüksəliş yolu keçmiş "İşıqlı yol" 90-cı illərdə dövrün məlum dağıdıcı prosesləri ilə üzləşdi. Özlərini boz qurd elan edən bir qrup cəbhəçi redaksiyanın qapısını mismarladı. Səbəbi belə izah etdilər ki, qəzet sovet hökumətinə, partnomenklaturaya xidmət edib, rayon partiya komitəsinin orqanı olub.

Elman müəllim danışır ki, bəlkə də, başqalarının bu hərəkəti mənə yer etməzdi, "Şərur qönçələri"nin üzvü kimi çətin günlərində evimə aparıb qonaq etdiyim, yaradıcılıq dəstəyi göstərdiyim bu şair təbiətli adam qapıya mismar çalanda, sanırdım ki, qəlbimə çalır, bıçağı kürəyimə saplayır.

Qəzet fəaliyyətini dayandırandan sonra Elman Məmmədov "Mirzə Namlem" imzası ilə hər gün kiçik formatda, 8-12 səhifə həcmində bülletenin dərcinə nail oldu. Əl-əl, səngər-səngər gəzən bülletendə sərhəd bölgələrində erməni təcavüzkarları ilə gedən döyüşlər barədə məlumat verilirdi.

Elman Məmmədov 1992-ci ildən "Şərurun səsi" qəzetinin redaktorudur. Onun təbirincə, jurnalistikada xırda heç nə yoxdur. 10-15 cümlədən ibarət bir xəbərin başlığını da "yüz ölçüb bir biçir". Adi statistik şərhlərdə də, problematik mövzuların işıqlandırılmasında da jurnalist həmkarımızın qələminin sanbalını görmək çətin deyil. İqtisadiyyatın ayrı-ayrı sahələrində gündəmdə dayanan, həllini tələb edən məsələlərin çözülməsinə aid mövzular üzərində xeyli düşündükdən, nə yazacağını, necə yazacağını dəqiq müəyyənləşdirəndən sonra ələ qələm götürür. Onun mövzuya baxış bucağı, problemin təhlil və təqdimat üsulları təkcə peşəkar jurnalist olmasından irəli gəlmir. Bunlar həm də onun toxunduğu mövzuları, başqa sözlə, iqtisadiyyatın ayrı-ayrı sahələrində gedən islahatları, həllivacib məsələləri dərindən bilməsinin nəticəsidir. Rayonda ailə təsərrüfatlarından, müəssisələrdə istehsal edilən yerli məhsulların ixrac imkanlarından, mənəvi dəyərlərdən, təhsil, səhiyyə məsələlərindən, insanların gündəlik həyatından bəhs edərkən yazdığına sərf etdiyi vaxtdan daha çox oxuyur, yazacağı mövzunu bütün təfərrüatı ilə araşdırıb öyrənir, mənimsəyir və kompüter arxasına keçir. İnnovasiyalar, sosial könüllülər, startap layihələri, kurikulum, pandemiyaya qarşı qabaqlayıcı tədbirlər… Bunlar son illərin mətbuata gətirdiyi mövzulardır. Gərək zamanla ayaqlaşasan, öyrənəsən, gənc həmkarlarından geri qalmayasan. Onlar belə şeyləri yaxşı bilir, janrlar arasında sərhədləri isə Elman müəllim kimi peşəkarlar tanıyır. Yazılara korrespondensiya, məqalə, zametka, zarisovka, müsahibə, reportaj, oçerk və digər janrlarda oxucuya təqdim edir. Yazıların dili aydın və şirin, gətirilən faktlar sənədlər əsasındadır. Bu kimi yazıları oxuyan oxucu həm daxili dünyası işıqlandırılan qəhrəmanı, həm də qəlbi, mənəviyyatı ziya dolu müəllifi görür.

Keçmişinə boylananda, dünəninə baxanda özü, ailəsi, 4 övladı, 10 nəvəsi, 2 nəticəsi, dost-tanışları üçün utanc gətirməyəcək bir ömür yaşadığından qürur hissi keçirir. Çətinliklərindən, ağrı-acılarından danışmağı sevmir. Ağlı kəsəndən dərdlə yoldaşlıq, qayğıyla qardaşlıq eləyib. Bundan bezikmək nədir, cəfakeşliyi, fədakarlığı bir yaşamaq vasitəsi bilib. Çətin mənzil şəraitində illərlə ağır yataq xəstəsi olan həyat yoldaşına həyan olub. O, həyatdan köçəndən sonra taleyin daha bir ağır zərbəsi ilə üzləşib. Oğlu Kamran gənc ikən qəfil ölümü ilə sinəsinə dağ çəkib. Bütün bunlara rəğmən müsbət enerji ilə talenin bəxş etdiyi ömür payını yaşayır.

*– Yeni yaş… Qocalmaqmı, ucalmaqmı?*

– Şərəfli qocalıq başqa şeydir. O ucalıqdır. Hər yeni yaş əvvəlkinin hesabatıdır deyərdim, sabaha yeni baxışdır, yeni planlar, arzulardır... Həyata qırılmaz tellərlə bağlanmaqdır. Yaşımdan qorxmuram. Axı əgər hələ də mənim enerjim, yaşamaq həvəsim, həyata və insanlara sevgim varsa, yaşın nə önəmi var? Mən hələ yaşamaq, işləmək, insanlara əl tutmaq istəyirəm. Gələcəyə xoş güman olan insan xislətində, təbiətindədir, insan qəlbinin əbədi, kövrək ehtiyacıdır. İnanırsan ki, hər şey daha yaxşı, daha gözəl olacaq. İnsanlar bir-birilə daha doğma, daha yaxın olacaqlar. Nəvələrimin toyunu görüm, ətrafımdakı insanlar xoşbəxt olsunlar. O gün olsun ki, doğma Qarabağımızın, Kərkimizin azad edildiyinin şahidi olum və inanıram ki, bu arzuma çatacağam.

*Biz də qələm dostumuzu ömrünün müdrik çağına – 70 yaşına çatması münasibətilə təbrik edir, ona uzun ömür, cansağlığı, yeni yaradıcılıq uğurları arzulayırıq. Qoy Elman Məmmədovun imzası ilə Odlar Yurdu Azərbaycanımızdan, onun ən qədim və ayrılmaz hissəsi olan doğma Naxçıvanımızdan, sinəsindən Arpaçay, ətəyindən Araz keçən Şərurdan xoş müjdəli, qələbə soraqlı yazılar bundan sonra da oxuculara sevinc bəxş etsin.*

**Hüseyn ƏSGƏROV**
***Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti***

# Miqrasiya proseslərinə nəzarət gücləndirilir

Naxçıvan Muxtar Respublikasında miqrasiya proseslərinə dövlət nəzarətinin gücləndirilməsi, qanunsuz miqrasiyanın qarşısının alınması məqsədilə Dövlət Miqrasiya Xidməti tərəfindən həyata keçirilən tədbirlər aprel ayında da davam etdirilib. Xidmət tərəfindən muxtar respublika ərazisində qanunsuz yaşayan və qeydiyyatsız olan 9 əcnəbi aşkarlanaraq Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq barələrində müvafiq tədbirlər görülüb.

Ötən ay Dövlət Miqrasiya Xidmətinə əcnəbilərə Azərbaycan Respublikasında müvəqqəti və daimi yaşamaq üçün icazələrin verilməsi və yenidən rəsmiləşdirilməsi, əmək fəaliyyəti ilə məşğul olmaq üçün iş icazələrinin verilməsi, müvəqqəti olma müddətinin uzadılması, eləcə də vətəndaşlıq məsələləri ilə bağlı, ümumilikdə, 88 müraciət daxil olmuşdur. Müraciətlərin hər biri ayrı-ayrılıqda Azərbaycan Respublikası qanunvericiliyinin tələblərinə əsasən araşdırılmış, müvafiq qərarlar qəbul edilmişdir.

Dövlət Miqrasiya Xidməti tərəfindən fəaliyyət istiqamətlərinə uyğun olaraq maarifləndirmə tədbirləri aparılmışdır.

***Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin mətbuat xidməti***

# Ekoloji tədbirlər diqqət mərkəzindədir



***Muxtar respublika ərazisində ekoloji tarazlığın qorunması, əlverişli ekoloji mühitin yaradılması, insanların sağlam ətraf mühitdə yaşamasının təmin edilməsi məqsədilə uğurlu sosial-ekoloji siyasət həyata keçirilir.***

Aprel ayında ətraf mühitin mühafizəsi, qanunsuz ov edilməsi, meşə fondu torpaqlarından qanunsuz istifadə, ətraf mühitə atılan tullantıların normadan artıq olması hallarına qarşı mübarizə aparılması məqsədilə 10 yoxlama-reyd keçirilmiş, 6 inzibati xəta qeydə alınaraq qanunauyğun tədbir görülmüşdür. Ay ərzində ekoloji monitorinqlər davam etdirilmişdir. Babək rayonunun 4 yaşayış məntəqəsində aparılan monitorinqlər zamanı su mühiti, məişət, tibbi və bərk tullantıların idarə olunması və yaşıllıqların mövcud vəziyyəti öyrənilmişdir. Babək rayonunun Payız, Aşağı Buzqov və Yuxarı Buzqov kəndlərində aparılan monitorinq zamanı məişət tullantılarının müxtəlif ərazilərdə yerləşdirildiyi və açıq vəziyyətdə saxlanıldığı qeydə alınmış, çatışmazlıqların aradan qaldırılması üçün icrası məcburi olan tapşırıqlar verilmişdir.

Sədərək Rayon Su Monitorinq Laboratoriyasında aprel ayında Araz və Arpaçay çaylarının muxtar respublikaya daxil olan hissəsindən və Sədərək rayonu ərazisindən keçən "Şir arxı"ndan hər birindən 8 su nümunəsi olmaqla, ümumilikdə, 24 su nümunəsi götürülmüş və 360 analiz aparılmışdır. Analizlərin nəticəsində sularda çirklənmə hallarının yol verilə bilən qatılıq həddini keçməsi halı qeydə alınmamışdır.

Muxtar respublika ərazisində ekoloji tarazlığın qorunması sahəsində mühüm amil olan yaşıllıqların, meşələrin qorunması və artırılması diqqətdə saxlanılmışdır. Ötən ay təsdiq olunmuş sxem-plan əsasında kənd təsərrüfatı əkinləri üçün yararsız olan torpaq sahələrində yeni meyvə və üzüm bağları salınmış, şoranlaşmış və eroziyaya uğramış torpaqların müəyyənləşdirilərək əkin dövriyyəsinə qaytarılması üçün müvafiq tədbirlər görülmüş, mövcud meşələrdə bərpa işləri aparılmışdır. Ümumilikdə, 10 hektar sahədə yeni meyvə bağı salınmış, 7 min 885 müxtəlif meyvə və həmişəyaşıl ağac tingi əkilmişdir. Eyni zamanda ötən illərdə salınmış meyvə bağlarına aqrotexniki qaydada qulluq göstərilmiş, püstə bağında 30 hektar sahədə cərgə araları texnika vasitəsilə kultivasiya olunmuş, tinglərə aqrotexniki qaydada qulluq göstərilmiş, budama işləri aparılmış, su arxları təmir olunmuşdur. Ümumilikdə, aprel ayında meşəsalma və meşəbərpa tədbirləri zamanı 10 hektar sahədə yeni meyvə bağları salınmış, 18 hektar sahədə meşəbərpa tədbirləri həyata keçirilmiş və ərazilərə 15 min 385 müxtəlif meyvə və meşə tingləri, 1610 həmişəyaşıl ağac, 1460 söyüd çiliyi əkilmişdir.

Toxum üsulu ilə əkin zamanı, ümumilikdə, 70 hektar sahədə 385 kiloqram badamça, alça, yemişan, həmərsin toxumları ilə əkin işləri aparılmışdır. Cır meyvə ağaclarının məhsuldarlığının artırılması məqsədilə xüsusi mühafizə olunan təbiət ərazilərində, ümumilikdə, 1621 calaq vurulmuşdur. Ötən ay tingçilik sahələrində, ümumilikdə, 12 min üzüm, 11 min 250 iydə çiliyi əkilmişdir.

Muxtar respublika ərazisində meteoroloji şəraitin öyrənilməsi, hava haqqında dəqiq məlumatların, proqnozların hazırlanması, əlaqədar dövlət orqanlarının və ictimaiyyətin hidrometeoroloji informasiyalarla təmin edilməsi üçün zəruri tədbirlər ay ərzində davam etdirilmişdir. Ötən dövrdə Geoloji Axtarış və Kəşfiyyat İdarəsi üzrə geoloji axtarış, kameral və ümumi xarakterli işlər yerinə yetirilmişdir.

Ərazin sahəsində səpinti qızılın dərinlikdə yayılma qanunauyğunluqlarını öyrənmək məqsədilə dərinliyi 20 metrə qədər olan quyuların qazılması üçün hazırlıq işləri görülmüş, həmin ərazinin çöl işlərinin ilkin çöl geoloji sənədləri kameral şəraitdə hərtərəfli araşdırılaraq müvafiq cizgi əlavələrin tərtib olunması davam etdirilmişdir.

***Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mətbuat xidməti***

## *İtmişdir*

Naxçıvan şəhər Hacıniyyət kəndində yaşamış Əkbərov Babalı Allahverdi oğlunun adına verilmiş JN-016$^{B}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

* * *

Naxçıvan şəhəri Qaraçuq kəndində yaşamış Rəhimova Ləzifə Abbas qızının adına olan 230 inventar nömrəli evin texniki pasportu itdiyindən etibarsız sayılır.

* * *

Mərdanov Elvin Fikrət oğlunun adına olan 0201005002 nömrəli VÖEN itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ramiyyə Əkbərova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 356